# İQTİSADİYYAT

UOT 332.122.

## QUBA-XAÇMAZ İQTİSADİ RAYONU VƏ ONUN İQTİSADİ İNKIŞAF PERSPEKTİVLƏRİ

**A.M.MƏHƏRRƏMOV**
***Bakı Dövlət Universiteti***
***amagerramov@gmail.com***

*Məqalə Quba-Xaçmaz iqtisadi rayonu və onun iqtisadi inkişaf perspektivlərinə həsr edilmişdir. Burada rayon haqqında ümumi məlumatlar verilmiş və təhlil edilmişdir. Həmçinin Quba-Xaçmaz iqtisadi rayonunun inkişafı ilə bağlı olaraq müəyyən təkliflər verilmişdir. Bu rayonun iqtisadi inkişafının dövlət siyasətinin tərkib hissəsi olması məsələsi xüsusilə qeyd edilmişdir.*

**Açar sözlər:** iqtisadiyyat, Quba-Xaçmaz, inkişaf, turizm, kənd təsərrüfatı

Azərbaycan Respublikası iqtisadi inkişafı və xüsusilə regionların inkişafı daim dövlət siyasətinin tərkib hissəsi olmuşdur. Azərbaycan Respublikası Prezidentinin imzaladığı istər birinci (1) və istərsə də ikinci Dövlət Proqramlarında (2) məsələ tamlığı ilə ortaya qoyulmuşdur.

Quba-Xaçmaz iqtisadi rayonu Şabran, Xaçmaz, Quba, Qusar və Siyəzən inzibati rayonlarını əhatə etməklə Azərbaycanın şimal-şərq hissəsində yerləşir. Rayonun Azərbaycan Respublikası və Rusiya Federasiyası sərhədində yerləşməsi ona olduqca böyük geosiyasi əhəmiyyət verir. Bu əhəmiyyət rayonun iqtisadi resurslar etibarilə kifayət qədər zəngin olması ilə tamamlanır. Həm də bölgə xarici iqtisadi əlaqələr baxımından fəal bir bölgədir. Azərbaycan Respublikasının iqtisadi maraqlarının təmin edilməsi və büdcəsinin maliyyə vəsaitləri ilə təchiz edilməsi baxımından iqtisadi rayonun önəmi strateji xüsusiyyətə malikdir.

Quba-Xaçmaz iqtisadi rayonun strateji əhəmiyyətini müəyyən edən əsas səbəblərdən biri də ölkənin paytaxtı Bakı şəhərinə yaxınlığıdır. Bakı şəhərinə yaxınlıq Qubada və digər rayonlarda istehsal edilən kənd təsərrüfatı məhsullarının çevik bir şəkildə paytaxt bazarlarına gətirilməsinə imkan verir. Bu isə o deməkdir ki, Bakının ərzaq və kənd təsərrüfatı malları, habelə digər aqrar-

sənaye məhsulları ilə təmin edilməsində Quba-Xaçmaz iqtisadi rayonunun xüsusi rolu vardır. Bakıya yaxınlıq həmçinin imkan verir ki, gələcəkdə regionda yeni-yeni aqrar-sənaye müəssisələri açılsın. Potensialda həmin müəssisələrin rentabelli fəaliyyəti artıq kommunikasiya problemlərinin olmaması səbəbi ilə təmin edilə bilər. Eləcə də, Bakıya yaxınlıq regiona investisiya anallarının güclənməsinə təsir göstərə bilir. Aqrar-sənaye müəssisələri ilə yanaşı turizmin inkişafına da paytaxtla yaxınlıq güclü təsir göstərir. Bakı və ətraf rayonların əhalisinin bir çoxu istirahət mövsümlərini məhz burada keçirməyi münasib saymaqdadır. Qeyd edilən amil daxili turizmin inkişafında təkanvericidir.

Bunu da xüsusi vurğulamaq lazımdır ki, Quba-Xaçmaz iqtisadi rayonunda Krasnaya Slobada kimi bir qəsəbənin yerləşməsi regionun stratejiliyini bir qədər də artırır. Burada Azərbaycan dağ yəhudiləri icması kompakt şəkildə məskunlaşmışdır. Məlumdur ki, Azərbaycan Respublikası beynəlxalq miqyasda ölkə həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında dünyada böyük nüfuza malik olan yəhudi icmaları ilə sıx əməkdaşlıq edir. Quba-Xaçmaz analsadi rayonunda milli və dini tollerantlığın güclü təməllərə malik olması, heç bir diskriminasiya halının olmaması buranın iqtisadi inkişafında və ixtisaslaşmasında az rol oynamamışdır.

İqtisadi rayonun ümumi sahəsi 7,66 min kv.km olmaqla ölkə ərazisinin 8,8%-ni, təşkil edir. Qeyd edək ki, burada inzibati ərazisinə görə Azərbaycanın ikinci böyük rayonu olan Quba yerləşir. Quba həmçinin tarixi bir ərazi parçasıdır. Azərbaycan dövlətçiliyinin bərqərar olunmasında və iqtisadi inkişafının təmin edilməsində Quba tarixi bir rol oynamışdır (4). Həmçinin bu iqtisadi rayon Azərbaycan Respublikasının çoxmillətli palitrasının bir nümunəsidir. Burada müxtəlif xalqların, ləzgilərin, xınalıqların, azərbaycanlıların, qrğızların, buduqların birgə və dövlət qayğısı altında mehriban bərabər yaşadığın görmək olur. Çox millətli tərkib iqtisadi rayonun iqtisadi ukladında da az əks edilməmişdir. Bölgənin bir sıra xalqları, xüsusən xınalıq və ləzgilər tarixi iqtisadi təsərrüfat sahələri olan kiçikbuynuzlu heyvandarlıqla intensiv bir şəkildə məşğul olurlar.

İqtisadi rayon özünəməxsus relyef xüsusiyyətlərinə malikdir. Regionun ərazisi bir-birindən kəskin fərqlənən 4 hündürlük (26 metrdən 4466 metrədək) zonasına- düzənliklər, dağətəyi, orta dağlıq və yüksək dağlıq zonalarına ayrılır. Regionun iqlim şəraiti də bu zonalara müvafiq olaraq müxtəlifdir. Düzənlik zona üçün isti iqlim xarakterikdirsə, dağlıq zona soyuq-rütübətli və soyuq iqlim şəraitinə malikdir. Bölgənin relyefinin rəngarəngliyi burada iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına münbit şərait yaradır. Xüsusi ilə gələcək investisiya qoyuluşları və dövlət proqramlarının tərtibi və tətbiqi zamanı iqtisadi rayonun relyef müxtəliflyi nəzərə alınmalıdır.

Eyni zamanda iqtisadi inkişafın təmin edilməsi məqsədilə bölgənin iqlim amillərinin də diqqətdə saxlanılması lazımdır. İqlim dəyişmələri istiqamətində aparılan çoxsaylı tədqiqatların nəticələrinə görə müəyyən olunmuşdur ki, qlobal və regional miqyasda iqlim elementlərinin ekstremal qiymətlərinin

təkrarlanmasının tezliyi artmağa başlamışdır. Belə hallar özünü son onillikdə havanın temperaturunun daha sürətlə artması, yüksək temperaturla müşayiət olunan quraqlıq və müxtəlif ölkələrin ərazilərinin katastrofik subasması hadisələrinin daha tez-tez təkrarlanması formasında büruzə verməyə başlamışdır. Bununla əlaqədar olaraq bir sıra digər vacib parametrlərin də çoxillik dəyişmə tendensiyaları tədqiq olunmalıdır. Bunlara havanın rütubətliyi göstəricisi olan nisbi rütubətliyi, küləyin sürət və istiqamətlərini, havanın maksimal və minimal temperaturlarını və s. aid etmək olar (5).

Region əhalisinin ümumi sayı 453,1 min nəfər olmaqla ölkə əhalisinin 5,6%-ni, təşkil edir. Rayonun relyef - iqlim xüsusiyyətlərindən asılı olaraq əhali əsasən Xəzər dənizinin sahillərində yerləşən düzənlik ərazilərdə məskunlaşmışdır. Bölgə əhali məskunlaşmasının xarakterinə görə də potesial imkanlara malikdir. Əhali resursu gələcəkdə bu bölgədə bir sıra əmək resursu tutumlu sahələrin inkişafına kömək edə bilər. Eyni zamanda əhalinin işgüzarlıq dərəcəsi də kifayət qədər yüksəkdir. Ənənəvi təsərrüfat sahələri ilə yanaşı perspektivdə əhali seqmentinin bir qismini innovativ iqtisadi sahələrin formalaşdırılması zamanı pozitiv metodologiyanın tətbiqi ilə əmək fəaliyyətinə cəlb etmək olar. Ayrı-ayrı inzibati rayonların əhalisinin sayı və milli tərkibi də müxtəlifdir. Quba rayonunda 151900, Qusar rayonunda 87500, Xaçmaz rayonunda 158800, Şabran rayonunda 51200, Siyəzən rayonunda 37600 nəfər əhali yaşayır. İqtisadi rayonda yaşayan ümumi əhalinin 72%-i azərbaycanlılar, 22,7%-i ləzgilər, 2,1%-i tatlar, 1,6%-i türklər və s. təşkil edir. Əhalinin siyahıyaalınma məlumatlarına görə, burada yaşayan əhalinin 29,8%-i Xaçmaz, 28,6 %-i Quba, 17,9%-i Şabran, 16,6%-i Qusar, 6,9 %-i Siyəzən inzibati rayonlarının payına düşür (2).

Quba-Xaçmaz iqtisadi rayonunun əsas təbii sərvətləri neft, təbii qaz, yanar şist, qum, çınqıl, gildir. İqtisadi rayon sıx çay şəbəkəsinə və bol su ehtiyatlarına malikdir. İqtisadi rayonun ərazisinin 10-11 %-i meşələrlə örtülmüşdür (8). Quba-Xaçmaz iqtisadi rayonu mühüm kurort-sanatoriya regionlarından biri olmaqla zəngin təbii-rekreasiya ehtiyatlarına malikdir. Dəvəçi rayonunda Qalaaltı mineral suyu əsasında kurort fəaliyyət göstərir.

Regionun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir (7). Bu sahə əsasən tərəvəz və meyvə istehsalı üzrə ixtisaslaşmışdır. Bundan başqa, Şabran, Siyəzən, Xaçmaz rayonlarında üzüm, Qusarda kartof yetişdirilir. İqtisadi rayonun əhali məskunlaşan hər yerində taxıl əkilir. İqtisadi rayonun düzənlik ərazisində maldarlıq, dağətəyi və dağlıq zonasında isə qoyunçuluq inkişaf etmişdir. Siyəzən, Çarxı və Dəvəçidə quşçuluq kompleksləri mövcüddür.

Rayon iqtisadiyyatının sahə strukturunda kənd təssərufatının inkişafı, eyni zamanda, emal sənaye sahələrinin - yüngül və yeyinti sənayesinin inkişafına təkan vermişdir. Rayonun aqrar - sənaye kompleksinin əsasını meyvə - tərəvəz konservi istehsalı (Xaçmaz, Xudat, Quba), balıq emalı (Xudat), xalça toxuçuluğu (Quba, Xaçmaz, Qusar, Qonaqkənd, Pirəbədil) sahələri təşkil edir. Xaçmazda və Şabranda taxıl və süd məhsulları emal edilir. Neft və qaz hasilatı (Siyazən), elektrotexnika zavodu (Quba), metal qırıntılarının emalı (Xaçmaz)

iqtisadi rayonun ağır sənayesinin əsasını təşkil edir. Quba, Siyəzən və Xaçmaz-da kərpic zavodları, tara müəssisələri var.

Quba - Xaçmaz iqtisadi rayonu çox əlverişli nəqliyyat - coğrafi mövqeyə malikdir. İqtisadi rayon ərazisindən keçən dəmir yolu, avtomobil yolları, magistral neft, qaz və su kəmərləri, telekommunikasiya xətləri ölkənin nəqliy-yat- iqtisadi əlaqələrinin inkişafında mühüm rola malikdir. Azərbaycanı Rusiya Federasiyası ilə birləşdirən kommunikasiya xətləri bu regiondan keçir.

Regionun sosial - iqtisadi inkişafında, bu ərazilərdə məskunlaşan əhalinin bir çox sosial-mədəni tələbatının (səhiyyə, elmi-mədəni, təhsil) ödənilməsində rayonun sosial infrastrukturu mühüm rol oynayır. İqtisadi rayonda kütləvi kitabxana, teatr, xəstəxana və digər sosial infrastruktur obyektləri mövcuddur.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən Quba-Xaçmaz iqtisadi rayonun əhəmiyyəti dəfələrlə vurğulanmışdır. Prezidentin böl-gəyə səfərləri bölgə iqtisadiyyatının və ümumən Azərbaycan iqtisadiyyatının inkişafına təkan verəcək hadisələrlə yadda qalmışdır. 24 sentyabr 2011-ci ildə Prezident İlham Əliyev Qusarda Şahdağ qış-yay turizm kompleksinin tikintisi ilə tanış olmuşdur. Prezident İlham Əliyev kompleksə gələn yolların genişlən-dirilməsi, ümumiyyətlə, burada yol infrastrukturunun mükəmməl formada qurulması ilə bağlı tapşırıqlarını vermişdir. Həmin səfəri zamanı dövlət başçısı "İKAR-S" MMC tərəfindən Qubada inşa edilən meyvələrin çeşidlənməsi və saxlanması üçün soyuducu anbar kompleksi ilə tanış olmuşdur. Prezident İlham Əliyev Quba-Qəçrəş-Qımılqazma yolunun açılışında da iştirak etmişdir (9).

Bütün bunlar onu deməyə əsas verir ki, Quba-Xaçmaz iqtisadi rayonunda yeni meyvəçilik təsərrüfatlarının salınması və meyvəçiliyin inkişafı üçün, infrastrukturun yaxşılaşdırılması, habelə yeni obyektlərin inşası ilə bağlı əhali-nin işlə təmin edilməsi üçün mühüm işlər görülmüşdür.

Respublika rəhbərliyinin birbaşa qayğısı və dəstəyi ilə regionun inkişa-fında xeyli irəliləyişlər də əldə edilmişdir. Aşağıdakı cədvəllər bunu deməyə əsas verir (10).

Cədvəl 1

**Ticarət**

| | 2005 | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|---|
| Pərakəndə əmtəə dövriyyəsi min manat | 179506,1 | 296871,9 | 430895,0 | 480714,4 | 557875,4 | 680438,9 |
| Respublika üzrə ümumi əmtəə dövriyyə-sində xüsusi çəkisi | 3,88 | 3,91 | 3,96 | 4,06 | 4,08 | 4,14 |
| Keçən ilin müvafiq dövrünə nisbətən fiziki həcm indeksi | 116,5 | 116,3 | 117,6 | 111,7 | 109,4 | 112,2 |
| Əhaliyə pullu xidmətlərin həcmi, min manat | 24061,3 | 57248,7 | 81789,0 | 106684,1 | 124502,0 | 138897,7 |
| əvvəlki ilə nisbətən, faizlə | 127,7 | 129,4 | 128,2 | 121,8 | 111,9 | 106,6 |
| adambaşına, manatla | 51,24 | 119,12 | 168,5 | 217,41 | 250,67 | 275,41 |
| Ümumi həcmdə məişət xidməti, min manat | 5703,1 | 9103,5 | 12523,2 | 13692,3 | 15678,7 | 18643,1 |
| Əvvəlki ilənisbətən, faizlə | 127,2 | 111,9 | 124,0 | 105,7 | 111,6 | 117 |
| adambaşına, manatla | 12,15 | 18,94 | 25,80 | 27,9 | 31,57 | 37,05 |

Cədvəl 2

**Əmək bazarı**

| | 2005 | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|---|
| Orta aylıq nominal əmək haqqı, manat | 78,1 | 145,0 | 189,5 | 204,9 | 231,6 | 261,7 |
| Status almış işsizlərin sayı, nəfər | 1489 | 1409 | 1434 | 1156 | 1111 | 1133 |

Cədvəl 3

**Yeni iş yerləri**

| | 2005 | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|---|
| Açılmış iş yerlərinin sayı, cəmi | 9145 | 7156 | 5043 | 5020 | 5965 | 5078 |
| Ondan daimi iş yerləri | 5460 | 2636 | 2481 | 2045 | 2472 | 3055 |

Cədvəl 4

**Kənd təsərrüfatı**

| | 2005 | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|---|
| **Kənd təsərrüfatı bitkilərinin əkin sahəsi (bütün təsərrüfat kateqoriyaları üzrə), ha** | | | | | | |
| Dənli və dənli paxlalılar | 88082 | 62413 | 71691 | 92117 | 82068 | 91312 |
| o cümlədənbuğda | 76291 | 48091 | 53419 | 72349 | 62979 | 71246 |
| Şəkərçuğunduru | - | - | - | - | - | - |
| Dənüçün günəbaxan | 131 | 129 | 187 | 153 | 168 | 127 |
| Kartof | 5305 | 5434 | 5282 | 4994 | 4809 | 4579 |
| Tərəvəz | 8672 | 9887 | 9295 | 8279 | 8672 | 8401 |
| Bostan bitkiləri | 226 | 153 | 198 | 229 | 276 | 197 |
| Meyvəvə giləmeyvə | 25693 | 28253 | 30782 | 33281 | 34253 | 35300 |
| Üzüm | 262 | 357 | 448 | 569 | 685 | 864 |
| **Əsas bitkiçilik məhsullarının istehsalı (bütün təsərrüfat kateqoriyaları üzrə), ton** | | | | | | |
| Dənli və dənli paxlalılar | 190450 | 148376 | 152295 | 196173 | 165836 | 210318 |
| o cümlədən buğda | 167490 | 113343 | 112401 | 155159 | 127213 | 163849 |
| Şəkər çuğunduru | - | - | - | - | - | - |
| Dən üçün günəbaxan | 260 | 254 | 285 | 229 | 191 | 169 |
| Kartof | 51402 | 57169 | 55976 | 53156 | 42405 | 43757 |
| Tərəvəz | 179421 | 188878 | 192427 | 165181 | 170351 | 161720 |
| Bostan məhsulları | 1873 | 1250 | 1438 | 1611 | 2059 | 1663 |
| Meyvə və giləmeyvə | 165237 | 170022 | 184658 | 191934 | 195430 | 209082 |
| Üzüm | 3019 | 5443 | 6111 | 6830 | 6235 | 6657 |
| **Məhsuldarlıq (bütün təsərrüfat kateqoriya-ları üzrə), sentner/ha** | | | | | | |
| Taxıl | 21,6 | 23,8 | 21,3 | 21,3 | 20,2 | 23,0 |
| o cümlədən buğda | 22,0 | 23,6 | 21,1 | 21,4 | 20,2 | 23,0 |
| Şəkər çuğunduru | - | - | - | - | - | - |
| Dən üçün günəbaxan | 20,5 | 20,6 | 17,1 | 15,1 | 12,5 | 14,7 |
| Kartof | 97 | 105 | 106 | 107 | 88 | 96 |
| Tərəvəz | 203 | 186 | 198 | 193 | 188 | 189 |
| Bostan bitkiləri | 83 | 82 | 73 | 70 | 75 | 84 |
| Meyvə və giləmeyvə | 67,5 | 72,7 | 76,0 | 76,3 | 72,8 | 73,6 |
| Üzüm | 63,6 | 116,6 | 148,6 | 116,6 | 116,5 | 109,4 |
| **Mal-qaranıns ayı (bütün təsərrüfat kateqoriyaları üzrə), baş** | | | | | | |
| İri buynuzlu mal-qara | 192853 | 195905 | 198618 | 199964 | 201365 | 202240 |
| o cümlədənin əklər və camışlar | 84988 | 86373 | 87463 | 87824 | 88397 | 88843 |
| Qoyunlar və keçilər | 552172 | 561302 | 556188 | 559320 | 554233 | 556512 |
| Donuzlar | 2276 | 912 | 650 | 562 | 482 | 542 |
| Quşlar | 2584836 | 2921885 | 3494493 | 2576097 | 2757457 | 3269918 |

| Heyvandarlıq məhsullarının istehsalı, ton | | | | | | |
|---|---|---|---|---|---|---|
| Ət (kəsilmişçəkidə) | 21904 | 31764 | 33908 | 30227 | 25808 | 30647 |
| Süd | 109511 | 111730 | 112012 | 114200 | 118675 | 123095 |
| Yumurta, minədəd | 61979 | 63445 | 87683 | 90732 | 80922 | 75734 |
| Yun (fizikiçəkidə) | 990 | 1003 | 994 | 998 | 994 | 1000 |

Yuxarıda verilən cədvəllərdən göründüyü kimi, Quba-Xaçmaz iqtisadi rayonunun inkişaf dinamikası müsbət istiqamətə doğrudur. Orta aylıq əmək haqqı 2005-ci ildə 76,1 manatdan 2011-ci ildə 261 manata, yəni 3,4 dəfə artmışdır. İşsizlik isə müvafiq illər üzrə 1489 nəfərdən 1133 nəfərə, yəni 0,76 dəfə düşmüşdür. Yeni iş yerləri, ticarət və kənd təsərrüfatı üzrə göstəricilərin təhlili göstərir ki, bu regionda dövlətin apardığı məntiqli siyasət nəticəsində əhalinin kiçik və orta sahibkarlıq sahələrinin inkişaf etdirilməsinə marağı artmış və bunun nəticəsində Quba-Xaçmaz iqtisadi rayonunun dövlətin ÜDM-sində payı yüksəlmişdir. Lakin bütün bunlar onu deməyə əsas vermir ki, region öz inkişafının son həddinə çatmışdır. Xeyr, heç də elə deyildir. Çünki bu iqtisadi rayonun potensialı çox yüksəkdir və mövcud potensialdan səmərəli istifadə etmək bu gün üçün vacib olan məsələlərdəndir.

Bununla belə bir sıra iqtisadi səmərələşdirici tədbirlərlə bağlı müəyyən müddəaları təqdim etmək olar:

1. İqtisadi rayonun vahid iqtisadi informasiya portalının yaranmasına ciddi ehtiyac vardır. Bu informasiya portalı vasitəsilə istər yerli və istərsə də, xarici iş adamları bölgənin potensialı haqqında məlumatlandırıla bilərlər;
2. İqtisadi rayonda inzibati idarə orqanlarının fəaliyyətində iqtisadi imperativin gücləndirilməsi, yerli iş adamları üçün işgüzar təşəbbüskarlıq mühitinin formalaşdırılması, eləcə də sərhədyani ticarət qaydalarının asanlaşdırılması bölgənin inkişafına öz töhfəsini verə bilər;
3. İqtisadi rayonda ənənəvi iqtisadi sahələrin inkişaf etdirilməsi istiqamətində fəaliyyətin gücləndirilməsi, bu sahəyə yeni texnika və texnologiyaların istiqamətləndirilməsi xüsusi ilə aktualdır;
4. İqtisadi rayonda ənənəvi sahələrlə yanaşı innovativ sahələrin inkişaf etdirilməsi istiqamətində yerli və kənar pozitiv təşəbbüslərin dəstəklənməsi regional siyasətin uğurlarını artıra bilər;
5. İqtisadi rayonların işgüzar dairələrinin iştirakı ilə dövri iqtisadi forumların və dəyirmi masaların keçirilməsi;
6. Yerli iqtisadi islahatlara nəzarət edən bir institutun formalaşdırılması və onun çevikliyinin təmin edilməsi.

**ƏDƏBİYYAT**

1. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2004-2008-ci illər): Tammətnli elektron materiallar məcmuəsi. Bakı, 2007, s.4.
2. Bayramova İ.Z.Quba-Xaçmaz iqtisadi rayonunda kitabxana-informasiya resurslarinin yerləşməsinin müasir vəziyyəti // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2010, №3, s.203-209.
3. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı: Nurlar, 2009,184 s.
4. Mustafazadə Tofiq. Quba xanlığı. Bakı: Elm, 2005, s.7.
5. Səfərov S.H., Məhərrəmova M.M. Quba-Xaçmaz iqtisadi rayonunda atmosfer yağıntılarının və havanin nisbi rütubətliyinin çoxillik dəyişmə tendensiyasının qiymətləndirilməsi // Bakı Universitetinin Xəbərləri. Təbiət elmləri seriyası , 2010, №4, s.153-158.
6. Quba-Xaçmaz iqtisadi rayonunun pasportu. Bakı, Elm, 2011, 213 s.
7. http://www.azstat.org/region/az/index.shtml
8. http://catalog.az/az/10_regions/reg_05.php
9. http://president.az/articles/4090
10. http://www.stat.gov.az/

## ГУБА-ХАЧМАЗСКИЙ ЭКОНОМИЧЕСКИЙ РАЙОН И ПЕРСПЕКТИВЫ ЕГО РАЗВИТИЯ

**А.М.МАГЕРРАМОВ**

**РЕЗЮМЕ**

Статья посвящена Губа-Хачмазскому экономическому району и перспективам его экономического развития. В статье даны общие сведения о регионе. Далее они были проанализированы. Разработанны рекомендации и представлены читателю. Отмечено, что вопрос экономического развития этого региона является неотъемлемой частью государственной политики.

**Ключевые слова:** экономика, Губа-Хачмаз, развитие, туризм, сельское хозяйство

## THE GUBA-KHACHMAZ REGION AND ITS ECONOMIC DEVELOPMENT PROSPECTS

**A.M.MAHARRAMOV**

**SUMMARY**

The article studies the Guba-Khachmaz region and its economic development. The general data about the region have been analyzed, and certain recommendations have been proposed It is noted that the issue of public policy is an integral part of the economic development of this region in particular.

**Key words:** economics, Guba- Khachmaz, development, tourism, agriculture